## Korrupsiyaya qarşı yeni strateji plan

Məlum olduğu kimi, Prezident İlham Əliyev «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsinə dair sərəncam imzalayıb. Sənəddə korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının, ərizə və şikayətlərə baxılması işinin, audit işinin təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin təmin edilməsi, bir sıra dövlət strukturlarının fəaliyyətində şəffaflığını artırılması, dövlət idarəetmə və korporativ idarəetmə sistemlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması və digər mühüm tədbirlərə dair məsələlər öz əksini tapıb. Milli Fəaliyyət Planında korrupsiya ilə mübarizə tədbirlərinə dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların da cəlb olunması nəzərdə tutulur.

Vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin fikirləri də birmənalıdır: dövlət korrupsiya ilə mübarizədə qətiyyətli mövqe tutaraq ictimai təşkilatların prosesdə birgə fəal əməkdaşlığına üstünlük verir.

***Milli Fəaliyyət Planı cəmiyyətin tələblərinin nəzərə alındığı, təkmilləşdirilmiş mükəmməl sənəddir***

...Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində müasir tələblərə cavab verən normativ hüquqi baza yaradılıb və əksər dövlət qurumları öz əməkdaşlarının davranış qaydaları və kodekslərini təsdiq ediblər. Azərbaycan korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla da sıx əlaqə saxlayır və bir çox beynəlxalq konvensiya və sənədlərə imza atıb. Amma bununla yanaşı, ölkəmizin sürətli inkişafı, yeni dövrün inkişaf meyilləri, iqtisadi-sosial-ictimai həyatın bütün sahələrində baş verən dəyişikliklər korrupsiya ilə mübarizə tədbirlərinin daha təsirli və səmərəli aparılması üçün dövlət qarşısında bir sıra çağırışları meydana çıxarıb. Bu kimi məsələlər qanunvericiliyin təkmilləşdirilməsini də zəruri edir.

Vasif Mövsümovun bildirdiyinə görə, «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» cəmiyyətin tələblərinin nəzərə alındığı, təkmilləşdirilmiş mükəmməl sənəd hesab olunmalıdır. Sənəddə qarşıya bir sıra yeni mühüm vəzifələr qoyulub ki, bu da vətəndaşların üzləşdikləri çətinliklərin aradan qalxmasına səbəb olacaq: «Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi, vətəndaşların elektron müraciətlərinin rəsmi cavablandırılmasının təmin olunması, qaynar xətlərin təşkili və fəaliyyəti, dövlət qurumlarının rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili bu istiqamətdə çox mühüm dəyişikliklərə səbəb olacaq. Vətəndaş cəmiyyəti institutlarının bu prosesdə birgə iştirakına geniş yer verilməsindən başqa, davamlı şəkildə onların irəli sürdüyü təkliflərin hazırlanacaq yeni qanun layihələrində nəzərə alınması da böyük əhəmiyyətə malikdir. Güman edirəm ki, korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsinə dair qanun layihəsinin və müraciət, ərizə və şikayətlərə baxılması qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında QHT-lərin iştirakı təmin olunacaq və bu, ümumi işə öz müsbət təsirini göstərəcək».

V.Mövsümov hesab edir ki, korrupsiyaya qarşı mübarizə sahəsində yeni strateji planın və hədəflərin müəyyən olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin təsirini gücləndirəcək, iqtisadi, siyasi və sosial islahatların səmərəliliyini yüksəldəcək, şəffaflığın dərinləşməsinə səbəb olacaq.

***Yeni strategiyanın qəbul olunması korrupsiyaya qarşı mübarizənin prinsipial xarakter daşıdığını təsdiqləyir***

...Milli Fəaliyyət Planı korrupsiyaya qarşı mübarizə sahəsində hədəflərin, prioritetlərin, praktik addımların müəyyənləşdirilməsi baxımından yeni mərhələnin əsasının qoyulduğunu göstərir: «Yeni milli strategiyada da vətəndaş cəmiyyəti institutları hökumətin əsas tərəfdaşı kimi müəyyən olunub. Sənəddə Korrupsiyaya Qarşı Mübarzə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin 43 təklifi öz əksini tapıb. Bu isə dövlətin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa böyük önəm verdiyini göstərir. Birgə fəaliyyət nəticəsində qarşıdakı illər üzrə vətəndaşların hüquqlarının daha

səmərəli müdafiəsinə nail olmaq, onların üzləşə biləcəyi neqativ halların qarşısını almaq, korrupsiyaya şərait yaradan amilləri minimuma endirmək mümkün olacaq».

Ə.Nuriyev yeni Fəaliyyət Planını çox təkmil sənəd hesab edərək korrupsiya ilə mübarizənin təşkilində konkret istiqamətlərin müəyyən olunduğunu, hər bir dövlət strukturu qarşısında həyata keçirilməsi vacib olan detalların nəzərə alındığını bildirir: «Yeni strategiyanın qəbul olunması ölkəmizdə rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə tədbirlərinin prinsipial xarakter daşıdığını və dövlət siyasətinin ən prioritet sahələrindən birini təşkil etdiyini təsdiqləyir. Bu, onu göstərir ki, dövlət korrupsiyaya qarşı ən sərt və amansız mübarizə tədbirlərinin həyata keçirilməsi üçün güclü mexanizm yaradıb. Sənəddə mübarizə tədbirləri ilə yanaşı, qabaqlayıcı, korrupsiyaya şərait yaradan halların müəyyən olunması və bu istiqamətdə vaxtında müvafiq addımların atılmasına dair tədbirlərə də geniş yer verilib. Ümumiyyətlə, korrupsiyaya qarşı mübarizə sahəsində birgə fəaliyyət, ictimai nəzarət vətəndaşlarda antikorrupsiya mədəniyyətinin formalaşdırılmasına, antikorrupsiya tədbirlərinin səmərəli şəkildə həyata keçirilməsinə, korrupsiyaya qarşı uğurlu mübarizənin əsas şərtlərindən biri olan - möhkəm dövlət-özəl sektor-vətəndaş cəmiyyəti birliyinin, müttəfiqliyinin yaradılmasına yönəlib».

Ə.Nuriyevin fikrincə, «Elektron hökumət»in qurulması ilə bağlı həyata keçirilən tədbirlər dövlət idarəetmə sisteminin yenidən qurulmasında və şəffaflığın artırılmasında mühüm rol oynayacaq».

***Dövlətin QHT-lərlə sıx əməkdaşlığı şəffaflığın artırılmasına əvəzsiz töhfə verəcək***

... «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi Azərbaycan hökumətinin şəffaflığın təmin olunması, korrupsiya ilə mübarizə aparılması sahəsində güclü siyasi iradəsinin göstəricisidir və bu istiqamətdə ardıcıl şəkildə atılan addımlar buna əyani sübutdur: «Azərbaycan hökuməti beynəlxalq təşkilatlarla, vətəndaş cəmiyyəti institutları ilə korrupsiyaya qarşı mübarizədə səmərəli fəaliyyət göstərir. Yeni təsdiq olunmuş sənəddə QHT-lərin təkliflərinin nəzərə alınması bir daha dövlətin ictimai qurumlarla əməkdaşlığa xüsusi üstünlük verməsinin təzahürüdür».

«Şəffaflıq-Azərbaycan» təşkilatı Azərbaycanda korrupsiya ilə mübarizə strategiyasının həyata keçirilməsinə xüsusi diqqət yetirir. Təşkilat bölgələrdə fəaliyyət göstərən 5 regional ofisi vasitəsilə şəffaflığın təmin edilməsi və digər tədbirlərlə bağlı davamlı olaraq monitorinqlər keçirir. Layihə çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə özəl sektor arasında əməkdaşlığın təşviqi, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya ilə bağlı regionlarda maarifləndirmə və məlumatlandırmanın təşkili və digər sahələr üzrə tədbirlər həyata keçirilib. Bu cür tədbirlər sayəsində korrupsiya halları barədə, müvafiq dövlət qurumları ilə yanaşı, vətəndaşların QHT-lərə də müraciət etmək imkanı yaranır.

«Şəffaflıq-Azərbaycan» təşkilatının icraçı direktoru 2012-2015-ci illəri əhatə edən Milli Fəaliyyət Planı çərçivəsində dövlət orqanları ilə QHT-lərin sıx əməkdaşlığının güclənəcəyinə, birgə fəaliyyət sayəsində korrupsiya hallarının aradan qalxacağına və dövlət orqanlarının fəaliyyətində şəffaflığının artırılmasına əvəzsiz töhfə verəcəyinə inandığını bildirib.

Elbrus CƏFƏRLİ